

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblégahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 45 (22.956)

*7 mart 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul edib.

Prezident İlham Əliyev Məmmədəli Ağayevin 25 ildən artıqdır ki, Moskva Akademik Satira Teatrının direktoru vəzifəsində işlədiyini qeyd edərək onun Rusiyada teatr sənətinin inkişafına böyük töhfə verdiyini deyib. Moskva Akademik Satira Teatrının Rusiyanın aparıcı teatrlarından biri olduğunu qeyd edən dövlətimizin başçısı xalqımızın nümayəndəsinin uzun illər belə yüksək vəzifədə fəaliyyət göstərərək böyük hörmət qazandığını vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, Məmmədəli Ağayev bu günə qədər həmişə Azərbaycanla yaxından əlaqə saxlayıb və vətənindən ayrılmayıb. Dövlətimizin başçısı keçən il imzaladığı Sərəncamla Məmmədəli Ağayevin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edildiyini bildirib və ordeni ona təqdim edib.

Məmmədəli Ağayev dövlətimizin başçısına qarşıdan gələn prezident seçkilərində uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 1 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində fərqlənən qadınlar da vardır.

**Abdullayeva Nina Vasilyevna**
**Əhmədova Gülər Səfər qızı**
**Əliyeva Kəmalə Heydər qızı**
**Əlizadə Çiçək Sərvər qızı**
**İbrahimova Aləmzər Tofik qızı**
**Quliyeva Sürayyə İslam qızı**
**Quliyeva Ulduz Məhərrəm qızı**
**Orucova Mahizər Şəmil qızı**

"Tərəqqi" medalı ilə,

**Ağayeva Xırda Yusif qızı**

"Əməkdar hakim" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında səmərəli fəaliyyətlərinə görə:

Cəfərova Siyatel Sevindik qızı – **"Əməkdar müəllim"** fəxri adı ilə;

Fətullayeva Rəna Faiq qızı – **"Əməkdar hakim"** fəxri adı ilə;

Ağayeva Günəş Əkrəm qızı – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı ilə;

Abbasova Zülfiyyə Mərdan qızı

Nəcəfova Nurana Südeyib qızı – **"Əməkdar tibb işçisi"** fəxri adı ilə;

Bayramova Çiçək Yunis qızı
Camalova Roza Əvəz qızı
Hüseynəlili Zivər İnşallah qızı
Təmoyeva Sənubər İsmixan qızı
Vəliyeva Mahirə Salman qızı – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 mart 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Koreya Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



Martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyu ilə görüşüb.

Ali Məclisin Sədri Azərbaycan ilə Koreya Respublikası arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının rolundan danışdı, xüsusilə təhsil sahəsində səmərəli əməkdaşlığın qurulduğunu diqqətə çatdırdı. Naxçıvan Dövlət Universitetində Koreya dilinin tədris olunduğunu və koreyalı tələbələrin təhsil aldığını qeyd edən Ali Məclisin Sədri bütün bunların mədəni əlaqələrin inkişafına töhfə verdiyini bildirdi. Koreyanın "KOİCA" şirkəti tərəfindən quraşdırılan yeni texnologiyalar hesabına bu il Naxçıvan Dövlət Universitetində distant təhsil mərkəzinin yaradıldığını diqqətə çatdıran Ali Məclisin Sədri əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Ali Məclisin Sədri Qış Olimpiya Oyunlarının uğurla keçirilməsi münasibətilə səfirə təbriklərini çatdırdı və bunu Koreya Respublikasının inkişafının nəticəsi kimi dəyərləndirdi.

Naxçıvan Muxtar Respublikasında özünü vətənindəki kimi hiss etdiyini və göstərilən xoş münasibətdən məmnunluq duyduğunu bildirən Kim Çanq-gyu ölkələrimiz arasındakı əlaqələrdən bəhs etdi. Səfir muxtar respublikaya səfərinin mövcud əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi məqsədinə xidmət etdiyini bildirdi və əlaqələrin müxtəlif sahələr üzrə inkişafında maraqlı olduqlarını vurğuladı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universitetinin heyəti Çankırı Karatekin Universitetində olub

***Erasmus+ Beynəlxalq Mobillik layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetinin 6-sı tədris, 7-si təlim olmaq üzrə 13 nəfərlik müəllim və işçi heyəti Türkiyənin Çankırı şəhərində yerləşən Çankırı Karatekin Universitetində olub.***



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetin beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlara toxunaraq xarici ölkələrlə həyata keçirilən layihələrdən danışıb. Rektor ali təhsil ocağının Boloniya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbə və müəllimlərin akademik mobilliyini əsas götürdüyünü və bu istiqamətdə tələbə mübadiləsini davam etdirdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, artıq müvafiq ixtisaslar üzrə tələbələr seçilib və 1 semestr təhsil almaq üçün 4 tələbə Şota Rustaveli adına Batumi Dövlət Universitetinə, 2 tələbə Penza Dövlət Universitetinə göndərilib. Tələbə mübadiləsinin şərtlərinə uyğun olaraq 4 tələbə isə Naxçıvan Dövlət Universitetinə gəlib.

Müəllimlər Çankırı Karatekin Universitetində ixtisaslaşmış bölmələrdə keçdikləri dərs və treninqlər haqda məlumat veriblər. Naxçıvanın turizm potensialının tanıdılması istiqamətində Bələdiyyə və turizm kafedrasının müəllimi pedaqogika üzrə fəlsəfə doktoru, dosent Günay Vəliyeva tədris etdiyi dərslərdə bu sahəyə daha ciddi yanaşdığını diqqətə çatdırıb.

Beynəlxalq münasibətlər kafedrasının müəllimi Cəbi Quliyev qeyd edib ki, layihə çərçivəsində Xocalı faciəsi haqqında ətraflı məlumat verməklə faciənin dəhşətlərini qardaş ölkə ilə yanaşı, Sudan və Tacikistandan olan 28 nəfərlik nümayəndə heyətinə də çatdırıb.

Treninq üzvləri də rektorluq, idarə heyəti, strateji planlama, kitabxana, İKT və media üzrə müvafiq dərslərdə iştirak etdikləri haqda məlumat veriblər. Universitetin Fortepiano kafedrasının baş müəllimi Fatma Əliyeva verdiyi solo konsertin, "Sarı gəlin" xalq mahnısının tamaşaçılar tərəfindən alqışlarla qarşılandığını vurğulayıb.

**Səadət ƏLİYEVA**

## Miqrasiya proseslərinin idarə olunması müasir tələblər səviyyəsindədir

Ötən ay ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 21 əcnəbi aşkarlanıb. Onlardan 18-i barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 3-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində xidmətə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 528 müraciət daxil olub. Bu müraciətlərdən 74-ü əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Fevral ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 454 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 198-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

**Xəbərlər şöbəsi**

## Dövlət qurumlarına yeni avtomobillər təqdim olunub



Martın 6-da Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinə, İnzibati İqtisadi Məhkəməyə, Şahbuz Rayon Məhkəməsinə, Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsinə, Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzinə “NAZ-Lifan-620”, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinə “NAZ-Lifan-720” markalı xidməti avtomobillər, Şərur rayonuna isə “MAZ” markalı kommunal təyinatlı avtomobil və 30 tullantı konteyneri təqdim olunmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir ki, muxtar respublikada dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılır, yeni inzibati binalar tikilərək istifadəyə verilir, onların maddi-texniki bazası möhkəmləndirilir. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltməkdir. Bu gün 6 dövlət qurumuna yerli istehsal olan “NAZ-Lifan-620” və “NAZ-Lifan-720”markalı xidməti avtomobillərin verilməsi də bu istiqamətdə görülən işlərin davamıdır. Naxçıvan Avtomobil Zavodunun bu gün təqdim olunan “NAZ-Lifan-620” və “NAZ-Lifan-720” modelləri yüksək keyfiyyəti və rahatlığı ilə seçilir. Həmçinin bu gün Şərur rayonuna tullantıların toplanması və vaxtında daşınmasının təşkili məqsədilə “MAZ” markalı avtomaşın və 30 tullantı konteyneri təqdim olunur. Yeni xidməti avtomobillər idarəetmədə işin keyfiyyətini daha da yüksəldəcək. Buna görə də dövlət qurumlarının əməkdaşları avtomobillərin düzgün istismarına fikir verməli, onlara vaxtında lazımi texniki qulluq göstərməlidirlər.

Naxçıvan Muxtar Respublikası İnzibati İqtisadi Məhkəməsinin sədri Hicran Muradov avtomobillərin təqdimatına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından minnətdarlıq etmişdir.

**“Şərq qapısı”**

*İcmal*

## Muxtar respublikada əhalinin rahat yaşayışının təmin olunması, intellektual potensialın artması, iqtisadiyyatın, infrastrukturun güclənməsi daim diqqət mərkəzindədir

### *Ötən ayın ümumi mənzərəsini məhz belə ifadə etmək olar*

Bu gün milli inkişaf potensialının hərəkətə gətirildiyi, bu potensialın səmərəli realizə edilməsinə zəruri əsasların yaradıldığı Naxçıvan Muxtar Respublikasının yüksəlişini özündə təcəssüm etdirən sosial-iqtisadi modelin başlıca istiqaməti iqtisadiyyatın dinamik inkişafına və bu əsasda da sakinlərin rifahının yüksəldilməsinə yönəldilib. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə hesablanmış inkişaf strategiyasına əsaslanan bu modelin yeni keyfiyyət mərhələsində müvəffəqiyyətlə icra olunması nəticəsində muxtar respublikanın genişmiqyaslı uğurları ardıcıl xarakter alıb, ərzaq və enerji təhlükəsizliyi tam təmin olunub. 30 ilə yaxındır, davam edən blokada şəraitinin yaratdığı çətinliklərə, iqtisadi resurslara çıxış imkanlarının məhdudluğuna baxmayaraq, Naxçıvanda sosial-iqtisadi modernləşməyə əsaslanmaqla yüksək templə və yaradıcılıqla həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı layihələr, quruculuq işləri bütün sahələrdə öz səmərəli nəticələrini göstərməkdədir.

Muxtar respublikamızda aparılan quruculuq işlərində müasir üsul və metodlardan məharətlə istifadə olunur, yeni tipli məktəblər, uşaq bağçaları, müasir kənd mərkəzləri tikilir, yollar abadlaşdırılır, parklar və xiyabanlar salınır, müasir tələblərə uyğun memarlıq nümunələri yaradılır. Bunun nəticəsidir ki, qədim diyarımızın şəhər, qəsəbə və kənd yaşayış məntəqələri yeni görkəm alır, ildən-ilə gözəlləşir. Bu gün muxtar respublikamızın bütün resursları səfərbər edilərək əhalinin rahat yaşayışı, sosial məsələlərin uğurlu həlli, intellektual potensialın artması, infrastrukturun güclənməsi təmin olunur. Yəni tarixi yüzilliklərlə ölçülən, Azərbaycan dövlətçilik ənənələrinin saxlanc yeri olan qədim diyarımızda insan amili həmişə ön planda tutulur. Kəndlərin inkişafına göstərilən qayğı, tikilən yeni sosial obyektlər əhalinin rahat yaşayışını və bölgələrin tarazlı inkişafını təmin edir. Bu çərçivədə görülən işlər nəticəsində muxtar respublikanın ən böyük bölgələrindən olan Şərur rayonunun Ərəbyengicə kəndi də müasir Azərbaycan kəndlərinin sırasına qoşuldu. Fevralın 1-də kənddə tam orta məktəbin yeni binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış tədbirlərində iştirak edib.

Müasir dünyada öz gələcəyini düşünən bütün xalqlar elmə, təhsilə böyük önəm verirlər. Gələcəyimizi etibarlı və inamlı görmək istəyinin nəticəsidir ki, muxtar respublikamızda təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi bu gün prioritet istiqamətlərdən biridir. Naxçıvan blokadada olsa da, qısa müddət ərzində onlarla məktəb binası tikilib, yaxud tam təmir olunaraq şagird və müəllimlərin istifadəsinə verilib. Məqsəd gənc nəslin daha mükəmməl təhsil alması, şagird və tələbələrin hərtərəfli biliklərə yiyələnmələri üçün hər cür şəraitin yaradılmasıdır. Çünki qlobal bilik, intellekt yarışından, yəni “biliklərin sürət qatarı”ndan geridə qalmaq inkişafdan geri qalmaq deməkdir. Ərəbyengicə kəndində yeni məktəb binasının istifadəyə verilməsində də məqsəd burada müasir təhsil infrastrukturunun yaradılması, şagirdlərin müasir dünya standartları səviyyəsində təhsil almalarının təmin edilməsidir.

Fevralın 1-də Ərəbyengicə kəndində yeni məktəb binasının açılış tədbirindəki çıxışında Ali Məclisin Sədri deyib: ***“Bu gün ölkəmizin dəyərli, təhsilli, tərbiyəli və vətənpərvər gənclərə ehtiyacı vardır. Çünki Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlətin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Vətəndaş da o zaman qiymətli hesab olunur ki, o təhsilli, tərbiyəli və vətənpərvərdir. Bütün bunlar isə məktəbdə hazırlanır. Ona görə də kollektiv üzərinə düşən vəzifələri uğurla yerinə yetirməli, ölkəmiz üçün dəyərli vətəndaşlar hazırlamalıdır”.***

Ərəbyengicə kəndində aparılan kompleks quruculuq işlərindən sonra bu yaşayış məntəqəsi qəsəbə görkəmi alıb. Yollar abadlaşıb, asfalt örtük salınıb, fasiləsiz elektrik və qaz təminatı, rabitə xidməti, sürətli internetə çıxış imkanları bu kəndin sakinlərini qayğılardan azad edib. Burada yaradılan müasir səhiyyə infrastrukturu insan amilinə verilən dəyərin ifadəsidir. Görülən işlərin nəticəsidir ki, bu gün yaşayış məntəqəsində sakinlərə hərtərəfli tibbi xidmət göstərilir.



Muxtar respublikada inkişaf strategiyasının uğurla davam etdirilməsi iqtisadi potensialın daha da yüksəlməsinə şərait yaradıb, Naxçıvanda dayanıqlı və sabit iqtisadi sistem formalaşıb. Doğma diyarımızda sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan kompleks və sistemli tədbirlər, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi özəl bölmənin inkişafını sürətləndirib, şəhərlərlə yanaşı, bölgələrdə də sahibkarlığın inkişafına əlverişli şərait yaradıb. Bütün bunların nəticəsində sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, onların fəaliyyəti üçün hərtərəfli şərait, əlverişli biznes və investisiya mühiti formalaşıb. Hazırda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun hamısı, sənaye məhsulunun 95, tikintidə görülmüş işlərin 79, nəqliyyat xidmətlərinin 78 faizi, rabitə xidmətlərinin 83 faizə qədəri, ticarət və ictimai iaşə xidmətinin 100 faizi özəl sektorun payına düşür. Yaradılan şəraitin nəticəsidir ki, idxalın həcmi əhəmiyyətli dərəcədə azaldılıb, yeni iş yerləri açılıb. Vaxt vardı ki, Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdu. Bu gün isə 372 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Hazırda muxtar respublikada avtomobil və tikinti materiallarından tutmuş, ərzaq və məişət əşyaları istehsalına qədər çoxsaylı sahibkarlıq müəssisələri fəaliyyət göstərir. Məşğul əhalinin 83 faizi özəl sektorda çalışır.

Bu faktlar fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Ali Məclis Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşündə qeyd olunub.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının yaranmasının 94-cü ildönümünün tamam olduğunu diqqətə çatdırıb, bu münasibətlə tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini təbrik edib, sosial-iqtisadi inkişafda əməyi olanlara təşəkkürünü bildirib.

Görüşdəki çıxışında Ali Məclisin Sədri muxtar respublikada sahibkarlığın inkişafını şərtləndirən 6 istiqaməti vurğulayıb. Bunlardan ***birincisi,*** muxtar respublikada *vergi və gömrük güzəştlərinin*, dövlət qeydiyyatında *“bir pəncərə”* prinsipinin tətbiqidir. Naxçıvanda dövlət-sahibkar münasibətlərinin düzgün qurulmasının nəticəsidir ki, *ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 89 faizə çatıb.*

***İkinci,*** *torpaq mülkiyyətçilərinin* torpaq vergisi istisna olmaqla *bütün növ vergilərdən azad edilməsidir.* Bu sahədə çalışanlara bir sıra *güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi* kənd təsərrüfatının davamlı inkişafını təmin edib.

***Üçüncü,*** muxtar respublikamızda *xidmət sektoru da inkişaf edir.* Bu sektorun inkişafı, öz növbəsində, *turizmin inkişafına* təsir göstərib, müasir turizm sektorunun formalaşması hesabına isə muxtar respublikaya gələn turistlərin sayı artıb.

***Dördüncü,*** muxtar respublikanın Sahibkarlığa Kömək Fondunun xətti ilə *güzəştli şərtlərlə kreditlərin verilməsi də yeni fəaliyyətə başlayan sahibkarlıq müəssisələri üçün geniş imkanlar açıb.* Muxtar respublikada kreditlər üzrə *aşağı faiz dərəcələrinin* tətbiq olunması hesabına sahibkarların fəaliyyət dairəsi genişlənib.

***Beşinci,*** *idxaldan asılılığın aradan qaldırılması* sahəsində görülən tədbirlər öz faydasını verməkdədir. Bu sahədə əhəmiyyətli addımlardan biri də *ixracın təşviqi ilə bağlı qəbul olunmuş qərarlardır.* Bunun nəticəsidir ki, *ixracyönümlü məhsul istehsalı getdikcə artır.* Hazırda Naxçıvan Muxtar Respublikasının *dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur.* İstehsal olunan müxtəlif adda məhsulların ixrac imkanlarının artması səbəbindən artıq 9 ildir ki, muxtar respublikanın *xarici ticarətində müsbət saldo* qeydə alınır.

***Altıncı,*** bu gün muxtar respublikada *ən müasir tələblərə cavab verən iri ticarət mərkəzlərinin fəaliyyət göstərməsi, mövsüm ərzində yarmarka və festivalların təşkili,* satış yerlərində *yerli məhsullara üstünlük verilməsi* məhsul istehsalçılarının marağını artırıb. Son dövrlərin təhlilləri göstərir ki, tarladan birbaşa satışa prinsipinin dəstəklənməsi ailə təsərrüfatlarının inkişafına və artmasına əhəmiyyətli təsir göstərib. Bütövlükdə, *sahibkarlığın inkişafının dəstəklənməsi muxtar respublikanın iqtisadi potensialını artırıb.*

***“Bu gün əsas məqsəd ondan ibarətdir ki, sahibkarlıq mühiti daha da genişlənsin. Daxili bazarda yerli məhsullar hesabına bolluq yaradılsın. Yeni iş yerləri açılsın, məşğulluq təmin edilsin. Muxtar respublikanın ixrac imkanları artsın”,*** – deyən Ali Məclisin Sədri əlaqədar orqanların qarşısında konkret vəzifələr qoyub.

Tədbirdə Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 11 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxıb, yerli məhsulların istehsal prosesinin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, Naxçıvan məhsullarının xarici bazarlara çıxışı imkanlarının və ixrac potensialının artırılması, məhsulların qablaşdırılmasına və tara istehsalı sahələrinin yaradılmasına diqqət yetirilməsi, sahibkarlar arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, Naxçıvan Avtomobil Zavodunun istehsalı olan “NAZ-Lifan-5028” modelinin əsasında təcili tibbi yardım avtomobillərinin yığılması barədə tapşırıqlar verib.

Bu gün Azərbaycan-İran əlaqələri xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf edir. Bu çərçivədə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında enerji, təhsil, turizm, ticarət və nəqliyyat sahəsində səmərəli əməkdaşlıq mövcuddur. Həyata keçirilən qarşılıqlı rəsmi səfərlər, imzalanan sənədlər və əldə olunan razılıqlar əlaqələrimizin inkişafına öz töhfəsini verməkdədir. Münasibətlərin yüksək səviyyədə olmasını göstərən digər məqam isə qonşu dövlətlər üçün əlamətdar günlərin hər iki ölkədə qeyd olunmasıdır.

Fevralın 12-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu İran İslam Respublikasının yaranmasının 39-cu ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

Fevralın 23-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının orden və medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarını, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Hər il olduğu kimi, bu il fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksində Xocalı soyqırımının iyirmi altıncı ildönümü ilə əlaqədar tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov abidə önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edib.

***Bu gün muxtar respublikamızda bütün sahələrdə böyük uğurlar əldə edilir. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün hazırladığı investisiya reytingində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxıb. 2018-ci ildə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilməsi hər birimizdə qürur hissi yaradır. Muxtar respublikada uzaqgörənliklə həyata keçirilən abadlıq-quruculuq işləri, möhtəşəm layihələr özünün genişmiqyaslılığı və elmi əsaslandırılması ilə seçilir, əhalinin sosial şəraitini daha da yaxşılaşdırmaq, infrastrukturu yeniləşdirmək, müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlər uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasını reallaşdırır.***

**Rauf KƏNGƏRLİ**

## Yazılı abidələrimiz hərtərəfli tədqiq edilir

***Naxçıvanda xalqımızın milli sərvəti sayılan yazılı abidələrin tədqiq olunaraq gələcək nəsillərə çatdırılması işi uğurla həyata keçirilir. Tariximizi, milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən bu abidələrin toplanması, sistemləşdirilməsi, kataloqlaşdırılması, tədqiqi, mühafizəsi, bərpası və nəşri üzrə işlər AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu tərəfindən aparılır.***

2005-ci ildən fəaliyyət göstərən fonda ötən dövr ərzində müxtəlif qədim çap kitabları və dəyərli əlyazmalar toplanaraq tədqiq edilib. Bu haqda oxucularımıza məlumat vermək üçün fondun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilovla söhbət etdik. O, ulu öndər Heydər Əliyevin AMEA Naxçıvan Bölməsini yaradarkən səsləndirdiyi sözləri xatırladaraq dedi ki, bu gün fondun kollektivi fəaliyyətini dahi rəhbərin tövsiyələri əsasında qurub: ***"Mən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalamışam... Bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələnin öyrənilməsinə böyük ehtiyac var".***

Əlyazmalar Fondunda ötən dövr ərzində Naxçıvana aid elmi və tarixi əsərlərin əlyazmaları üzərində araşdırmalar aparılıb, tədqiq edilən əsərlərin bəziləri nəşr etdirilərək oxuculara təqdim olunub.

Öyrəndik ki, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda üç şöbə fəaliyyət göstərir: Əlyazmaların toplanması, Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri, Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbələri. Burada "Naxçıvan əlyazmalarının toplanması, kataloqlaşdırılması, öyrənilməsi və nəşr edilməsi" mövzusunda aparılan elmi-tədqiqat işləri Naxçıvanın tarixi keçmişinin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Fondun direktoru bildirdi ki, burada Atabəylər dövrünə aid tarixi-fəlsəfi əsər sayılan "Munisnamə"nin əlyazmaları aşkar olunaraq əsərin Naxçıvanla bağlı hissələri fondun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimov tərəfindən tərcümə edilib, kitab şəklində nəşr olunub. Əsər haqqında maraqlı faktlar kifayət qədərdir. Həmin əsərin əlyazmasının 1920-ci ildə Naxçıvandan aparılaraq İngiltərənin Britaniya Muzeyinə satılması da məlumdur. Lakin sonralar Britaniya Muzeyindən fotosurəti çıxarılaraq AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fonduna daxil edilib. Oradan da əlyazmanın Naxçıvana aid hissələrinin – giriş, I-II fəsillər, XVII fəslin bəzi hissələrinin fotosurəti çıxarılaraq AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fonduna gətirilib.

Həmsöhbətim "Munisnamə" haqqında geniş məlumat verərək qeyd etdi ki, 17 fəsildən ibarət olan əsərin XVII fəslində "Əshabi-Kəhf əhvalatı" və "Əbulüla Kirmaninin oğlu ilə Naxçıvana səfəri və onların başlarına gələn hadisələr"ə aid hekayələr diqqətçəkicidir.

Həmçinin ötən dövr ərzində muxtar respublika ərazisindən toplanan əlyazma nümunələrindən biri olan Hatif İsfahaninin "Tibnamə" əsəri də tərcümə və şərh olunaraq kitab şəklində çap edilib. Kitabda XVIII əsrdə yaşamış filosof-təbib Hatif Seyid Əhməd İsfahaninin (Ordubadi) həyatı, yaradıcılığı haqqında ətraflı məlumat verilib. Bu nəşr Naxçıvanda digər sahələrlə bərabər tibbin də inkişaf etdiyini, burada görkəmli təbiblərin yaşadığını və qiymətli əlyazma nümunələrinin varlığını nümayiş etdirən dəyərli mənbədir.

Müsahibim bildirdi ki, fondun əməkdaşları tərəfindən bir çox müəllifin əlyazmaları aşkar edilərək tədqiqata cəlb olunub. Belə ki, Əli Əkbər Məmmədrza oğlu, Mirzə Müslim Qüdsi, Mirzə Mahmud Zunuzi, Hacı Molla Məhəmməd Naxçıvani və başqa tanınmış müəlliflərin əlyazmaları üzərində araşdırma aparılıb. Tədqiqatlar zamanı Naxçıvanla bağlı elmə məlum olmayan bir sıra faktlar aşkar edilərək üzə çıxarılıb.

Söhbət əsnasında o da məlum oldu ki, ötən il Əlyazmalar Fondu üçün səmərəli olub. Belə ki, 58 adda qədim çap kitabı və əlyazma toplanaraq onlara ilkin elmi rəylər yazılıb. Fond elmi fəaliyyəti daha da genişləndirmək məqsədi ilə 2017-ci ilin aprel ayında AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilə bağlayıb. Bu da həmin institutdan bəzi qədim kitabların elektron variantının gətirilməsinə imkan verir. Fondda tamamilə yeni istiqamətdə, yəni Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivlərinin yaradılmasına başlanılıb. İlk addımlar artıq atılıb. Belə ki, XX əsrin 20-70-ci illərində Naxçıvan ədəbi mühitində özünəməxsus iz buraxan şair Seyid Səbrinin əsərlərinin əlyazmaları və topladığı folklor nümunələri əldə edilərək fonda gətirilib.

Bəli, tarixin, milli mədəniyyətin bərpası kimi bu qədim tarixi əsərlərin tədqiqi sayəsində də bu gün keçmişimizlə bağlı məlumatları bütün dünyaya çatdırmaq əzmindəyik.

**Nail ƏSGƏROV**

## Universitet əməkdaşları Rumıniyanın Pitesti Universitetində olublar

*Dünyanın müxtəlif ölkələrində "Erasmus+" proqramı çərçivəsində "Müəllim mübadiləsi layihəsi"nə əsasən ali təhsil ocaqlarında müəllimlər arasında imtahan keçirilib.*

Həmin layihə ilə əlaqədar "Naxçıvan" Universitetində keçirilən imtahanda universitetin tədris işləri üzrə prorektoru Hüseyn Bağırsoylu, İqtisadiyyat kafedrasının müəllimləri Əli Cabbarov və Naim Cahidzadə, Pedaqogika və psixologiya kafedrasının müəllimi Aytən Məmmədova yüksək nəticə əldə edərək Rumıniyanın Pitesti şəhərinin Pitesti Universitetinə müxtəlif ixtisaslar üzrə fənn tədris etməyə göndəriliblər.

Əməkdaşlardan aldığımız məlumata əsasən Hüseyn Bağırsoylu "Azərbaycanın enerji təhlükəsizliyi", "Azərbaycanın Orta Asiyadakı mövcud və siyasi vəziyyəti", Əli Cabbarov "Azərbaycanın Naxçıvan Muxtar Respublikasının turizm potensialı", "Naxçıvandakı Duzdağda müalicə turizminin inkişafı", Naim Cahidzadə "Müasir büdcə sistemləri və müasir maliyyə sistemləri", "Azərbaycan və dünya təcrübəsi fərqləri", Aytən Məmmədova isə "Dünyadakı pedaqoji yeniliklər və Azərbaycan təcrübəsi" mövzularında mühazirələr oxuyublar.

Onu da qeyd edək ki, səfər çərçivəsində universitet əməkdaşlarının Pitesti Universitetinin rektoru, prorektoru və "Erasmus+" üzrə mütəxəssislərlə görüşləri olub. Bu zaman ikili müzakirələrdən sonra növbəti müqavilələr üzrə razılaşmalar əldə edilib.

Məlumat üçün deyək ki, universitetin loqoları, tanıtım jurnalları və tarixi abidələrimizi əks etdirən hədiyyələr, eləcə də Naxçıvandan aparılmış duz parçaları Pitesti Universitetinə hədiyyə edilib.

**Nuray ƏSGƏROVA**

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında pediatriyanın aktual problemlərindən olan pediatrik

## Pediatriyanın aktual probleminə dair elmi-praktik seminar

reanimasiyaya dair elmi-praktik seminar keçirilib. Xəstəxananın baş həkimi Rəhim Rəhimov tədbiri giriş sözü ilə açaraq uşaq əhalisinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısından danışıb.

Sonra Reanimasiya və intensiv terapiya şöbəsinin həkim-reanimatoloqları Cabir Həsənov "Mexaniki ventilyasiya", Aytən Tahirova "Hipertermik sindrom", Sabirə Kazımova "Febril qıcolmalar" mövzularında məruzələr ediblər.

Seminarda qeyd olunub ki, uşaq reanimasiyası yeni doğulan və reanimasiya şəraitinə ehtiyacı olan körpələrə lazımi və operativ tibbi xidmət göstərir. Tibbin ən son nailiyyətləri əsasında körpələr qısa müddət ərzində müalicə olunur, valideynlər qabaqcadan körpənin klinik vəziyyəti barədə məlumatlandırılır.

Vurğulanıb ki, uşaqları qorumaq, onları müdafiə etmək hər bir dövlətin qarşısında duran əsas vəzifədir.

Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

## Məktəblərdə endokrinoloji müayinələr aparılıb

Bu gün muxtar respublikada yaşayan əhalinin 126 min 156 nəfərini, yəni 27,5 faizini 0-18 yaşa qədər uşaqlar təşkil edir. Onların icbari dispanserizasiyası, elektron sağlamlıq kartlarının verilməsi, məktəbyaşlı uşaqlarda ixtisas həkimləri tərəfindən dərindən tibbi müayinələrin aparılması, həkim briqadalarının ucqar dağ kəndlərində uşaqları müayinə etmələri, idarəolunan yoluxucu xəstəliklərə qarşı peyvəndlərin vurulması və digər sağlamlıq tədbirləri daim diqqət mərkəzindədir. Belə xəstəliklərə qarşı profilaktika işi son illər daha da gücləndirilib. Peyvəndlərin aparılmasına ciddi nəzarət edilir. Uşaqlara xidmət edən tibb müəssisələrinin maddi-texniki bazalarının möhkəmlənməsi, onların müasir texnoloji aparatlarla təchiz edilməsi, pediatrik xidmət göstəricilərinin yüksəlməsinə səbəb olub.

Uşaq əhalisinin sağlamlığının qorunmasına yönəldilmiş tədbirlər cari ildə də davam etdirilir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən şəhər məktəblərində fevralın 6-dan başlanan endokrinoloji müayinələrdə məqsəd hormonal problemlərin aşkarlanması və vaxtında müalicə olunmasıdır. Xəstəxananın endokrinoloq və pediatrlarından ibarət briqadası tərəfindən həyata keçirilən müayinələr 11 min 960 şagirdi əhatə edib. 750 nəfərdə endokrinoloji patologiya aşkarlanıb. 562 nəfərdə piylənmə, 13 nəfərdə şəkərli diabet, 2 nəfərdə isə şəkərsiz diabet müşahidə olunub. Hazırda Mərkəzi Uşaq Xəstəxanasında onların müalicəsi aparılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Uşaqların hərtərəfli formalaşmasında müxtəlif fənlərin tədrisi zamanı folklor nümunələrinin yeri almasının da önəmi çoxdur. Folklor şifahi xalq ədəbiyyatımızın qiymətli nümunələri olmaqla yanaşı, həm də uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətlərinin formalaşmasına böyük təsir edir. Qeyd edək ki, zəngin folklor nümunələrinin əksəriyyəti xüsusi olaraq uşaqlar üçün yaradılmışdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi:* ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".*** *Uşaqlar, həqiqətən də, bizim gələcəyimizin təminatçılarıdır. Onları vətənpərvər ruhda böyütməkdə, kiçik yaşlarından etibarən Vətənə sevgi hissi aşılamaqda folklor nümunələrinin rolu böyükdür.*

*Xalq yaradıcılığı*

## Uşaqların formalaşmasında folklorun rolu



Uşaq ana dilini öyrənməyə ana laylası ilə başlayır. Bir sözlə, uşaq dünyaya göz açan gündən folklor nümunələri ilə qarşılaşır, anaların şirin laylası ilə uyuyur, nənələrin, xalaların, bibilərin həzin mahnıları ilə əzizlənir, onlara xoş gələn duzlu oxşamalarla gülür, yanıltmaclarla dil açır və beləcə, həyatda mənəvi nemətlərdən ilk payını alır. Uşaqlar yaşa dolduqca folklorun digər nümunələri ilə də tanış olur, bununla qidalanırlar. Onların beynində, ruhunda Vətən sevgisi yaranır və elə də böyüyürlər. Hətta məktəbəqədərki dövrdə kifayət qədər şeirlər əzbərləyir, nağıllar öyrənirlər. Bu biliyə malik olan uşaqlar məktəbə böyük bir həvəslə gəlirlər. Amma bəzi hallarda bu həvəsi uşaqlarda inkişaf etdirmək yerinə kiçikyaşlı məktəblilərin poeziyaya olan marağını konkret bir qəlibə salıb, onları məhdudlaşdırırıq. Bunun nəticəsi olaraq dünən şeirləri, nağılları, əfsanələri, tapmacaları çox asanlıqla əzbərləyən, öyrənən bir uşaq birdən-birə passivləşir. Məktəbə qədər uzun-uzadı foklor nümunələrini birnəfəsə deyən balacalar sanki çevrilib başqa uşaq olurlar. Çünki foklor dünyasından, azad bir dünyadan çərçivələnmiş bir aləmə düşürlər. Bunun qarşısını almaq lazımdır. Bu da ibtidai sinif müəllimlərinin üzərinə düşür. Yəni poetikanın əsas xüsusiyyətlərini öyrətmək üçün müəllim özü bir ədəbiyyatşünas kimi onun ən incə xüsusiyyətlərini dərk etməli və ibtidai siniflərdə tədris prosesində folklorla bağlı dərslərin, tapşırıqların yerinə yetirilməsinə ciddi yanaşmalıdır.

İbtidai siniflərdə folkloru elə mənimsətmək lazımdır ki, şagirdlər bu qiymətli xalq yaradıcılığı nümunələrimizi həmişəlik yaddaşlarında saxlasınlar. Folklorumuz özü bir tərbiyə üsuludur. Müəllim şagirdlərə həm folklor nümunələrini, həm folklor oyunlarını öyrətməli, həm də məktəbə qədər öyrəndiklərini təkmilləşdirməlidir. Deməli, müəllimin üzərinə böyük məsuliyyət düşür. Müəllim şagirdə folkloru mexaniki şəkildə əzbərlətməklə deyil, onu dərk edərək öyrətməklə daha yüksək nəticə əldə edə bilər. İbtidai siniflərdə uşaq folkloruna nə qədər geniş yer verilsə, bir o qədər yaxşıdır. Həmçinin dərsdən sonra sinifdənxaric tapşırıqlarda belə, folklorun öyrənilməsinə geniş yer ayrılmalıdır. Xalqın keçmişindən bu gününə kimi davam edən folklor nümunələri şagirdlərə geniş və dolğun şəkildə öyrədilməlidir ki, onlar da bu zəngin nümunələri gələcək nəsillərə olduğu kimi çatdırsınlar.

Şagirdlərə folklorun dərindən mənimsədilməsinin əsas əhəmiyyətindən biri odur ki, gələcəkdə hansısa bir xalqın nümayəndəsi Azərbaycan folklor nümunələrini öz adına çıxmaq istəsə, o, bunun yanlış olduğunu bilib, etiraz edəcək.

Folklorun mənimsədilməsinin əsas yollarından biri də əyanilikdir. Naxçıvanda bütün tam orta məktəblərdə elektron lövhələrdən istifadə imkanları genişdir. Müəllim bu texnologiyalardan istifadə etməklə folklorumuzu şagirdlərin yaddaşında asanlıqla qalacaq şəkildə mənimsədə bilər.

Folklor nümunələrinin, deməli olar ki, çox növü şagirdlərə tədris olunur. Uşaq folkloru janrlarından biri olan tapmacalar daha çox şagirdlərin diqqətini çəkir və onların marağına səbəb olur. Məsələn, müəllim şagirdlərə tapmacaları keçəndə maraqlı əyani vasitələr və slaydlar hazırlayarsa onların yüksək səviyyədə mənimsəməsinə nail ola bilər. İstər əyani vəsaitlər, istərsə də slaydlar elə hazırlanmalıdır ki, uşaqların tapmacaları asanlıqla tapmasına köməklik etsin. Həmçinin müəllim şagirdlərin yaşını və qavrama səviyyəsini nəzərə alıb onlara uyğun tapmacalar seçməlidir. Çünki tapmacaları öyrədəndə istər müəllim, istərsə də valideyn folklor nümunələrini uşaqlara mənimsətməklə yanaşı, həm də onların məntiqini inkişaf etdirir. Belə desək, kiçikyaşlı məktəblilərin məntiqi təfəkkürünün formalaşmasında tapmacaların rolu böyükdür. Elə tapmacalara aid bir neçə nümunəyə diqqət yetirək.

*Bir cüt rəqəmim var,*
*Yerini dəyişəndə otuz üç artır.*
*Tap görək hansıdır onlar?*
(66 rəqəmidir tərsinə çevirəndə 99 alınır)

*Bu necə sirdir,*
*Görəsən o nədir?*
*Biri öldürür, biri dirildir.*
(qışda ağaclar ölür, yazda dirilir)

Laylalar, tapmacalar kimi uşaqların tərbiyəsində mühüm rol oynayan janrlardan biri də nağıllardır. Şifahi xalq ədəbiyyatının epik növünün ən qədim, ən çox yayılmış, çox sevilən və həcmcə ən böyük janrı olan nağıllar uşaqların tərbiyəsində, onların dünyagörüşünün artmasında, vətənpərvər ruhda böyümələrində, yaxşı əməl sahibi olmalarında, bir sözlə, mükəmməl fərd kimi formalaşmalarında mühüm yer tutur. Məhz buna görə də nağılların öyrədilməsinə xüsusi önəm vermək gərəkdir. Nağılları danışarkən nə qədər canlılıq yaratsaq, bir o qədər yüksək nəticə əldə etmiş olarıq. Onları öyrədərkən yaxşı olar ki, nağıl qəhrəmanlarının şəkillərini əks etdirən slaydlar hazırlansın. Uşaqların iştirakı ilə nağıl qəhrəmanlarını əks etdirən kiçik səhnəciklər, nağıllara bağlı suallar hazırlanması da onlarda maraq doğurar.

Məsələn, suallar bu istiqamətdə ola bilər: Nağılın müəllifi sən olsaydın, onu necə adlandırardın? Nəyə görə? Nağılın müəllifi sən olsaydın, sonunu necə bitirərdin? Sən nağıl qoşsaydın nələrə diqqət edərdin? Nağıldakı qəhrəmana nə demək istərdin? Bu kimi suallarla uşaqlar öz təfəkkürlərini inkişaf etdirə bilərlər.

*Folkloru uşaqlara, şagirdlərə sevdirməliyik. Gələcək nəsillər də bu zənginlikdən faydalansın deyə, bunu qoruyub nəsillərdən-nəsillərə, əsrlərdən-əsrlərə ötürməliyik.*

**Çinarə RZAYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Təbiətin sehrli rəngləri

***Zövqümüzü öz gözəlliyi ilə oxşayan gülləri sevməyən insana, demək olar ki, çox az hallarda rast gəlinir. Çünki güllər təravəti, zərifliyi və ətri ilə hamını məftun edir, xüsusilə də qadınları. Hər zaman güllər xanımların sevimli hədiyyələri olaraq qalır. Onlar ecazkar görünüşləri, müsbət auraları ilə bizim hisslərimizə təsir edirlər.***



Əvvəllər stolun üstündə, sadəcə, yaz-yay fəslində gül-çiçəyə rast gəlmək olardı. Hətta məktəbdə oxuduğumuz zamanlarda, xüsusilə də ibtidai sinifdə, həyətimizdəki güllərin açmasını gözləyər, zamanı gəldiyində isə qoparıb sevinə-sevinə aparardıq sevimli müəllimimizə. İndi isə güllərin zamanı yoxdur. Payız, qış, yaz və yaxud yay aylarında təzə-tər çiçəklər almaq imkanımız var. Çünki indi muxtar respublikamızda gülçülük təsərrüfatları fəaliyyət göstərir, bu işlə məşğul olan insanların sayı getdikcə artır. Babək rayonunun Zeynəddin kəndində də belə təsərrüfatın yaradılmasından xəbərim olsa da, oraya yolum düşməmişdi. Bu günlərdə “Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır” düşüncəsi ilə yol aldım sözügedən ünvana.

Bizi mehribanlıqla qarşılayan sahibkarla bərabər içəri keçib təsərrüfatın sahəsini gəzirik. Gözoxşayan, xoş ovqat yaradan rəngbərəng, növbənöv güllər. Güllərin biri açıb, biri qönçə, digəri təzə pöhrədi. Geniş zolaqlar içərisində üzə gülən güllərə baxmaqdan doymaq olmur.

Sahibkar Əsəd Abbasov deyir ki, gülçülük təsərrüfatı 2014-cü ilin aprel ayında yaradılıb və 4600 kvadratmetr olan sahədə istixanaya qerber, qızılgül, lilya, qladyol, qərənfil və sair olmaqla, 11 növdə gül şitili əkilib.

Seçilib əkilən bu güllərin gözəlliyi ilə yanaşı, məhsuldarlığına görə də əlverişli olduğu hiss edilir. Diqqətlə nəzər yetirdikdə görürük ki, təsərrüfatda qərənfillərin yetişdirilməsinə daha çox yer verilib.

Gül şitillərinin haradan gətirildiyini öyrənirik. Sahibkar deyir ki, Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraitində gül becərib ərsəyə gətirmək xüsusi təcrübə tələb edir. Havadakı nəmliyi təmin etmək, eləcə də normal istilik yaratmaq üçün Türkiyənin gülçülük təsərrüfatlarında lazımi təcrübəyə yiyələnmişik. Odur ki, təsərrüfatda yaradılan qazanxana, havatəmizləyicinin qoyulması, güllərin damcı üsulu ilə suvarılmasının təşkili, temperaturun normada olmasının xüsusi aparatlar vasitəsilə tənzimlənməsi, torpağa göstərilən qulluq, xəstəliklərə qarşı tədbirlərin diqqətlə aparılması ailə təsərrüfatına məhsul bolluğu bəxş edir. Məhsul bolluğu isə eyni zamanda naxçıvanlıların güllərə olan tələbatının ödənilməsi və sahibkarın ailə büdcəsinə gəlir gətirməsi deməkdir. Üç qardaşın birgə əməyi sayəsində ərsəyə gələn təsərrüfatda ailə üzvləri həvəslə çalışırlar.

Torpaq mülkiyyətçisi bildirir ki, 14 ildir, gül satışı ilə məşğuldurlar. Əvvəlcə Bakı, İran, Türkiyədən güllər gətirib Naxçıvan şəhərində özlərinin “Al çiçəyim” mağazasında satıblar. Sonra isə Naxçıvanda sahibkarlığa yaradılan geniş şəraitin qarşılığında öz təsərrüfatlarını yaradıblar. Sonrakı illərdə isə sahibkarlara olan dövlət qayğısından bəhrələniblər. Belə ki, Sahibkarlığa Kömək Fondundan kredit götürərək təsərrüfatlarını genişləndiriblər. Torpaq isə onların zəhmətinin qarşılığını artıqlamasıyla verir. İl-ildən məhsul artımına nail olan sahibkarın dediyinə görə, burada yetişdirilən növbənöv güllər təkcə Naxçıvanda deyil, Bakı şəhərində də özünə çoxlu alıcı qazanıb.

Bəli, bayram və əlamətdar günlərdə ölkəmizə xaricdən gətirilən güllərə xeyli pul xərclənir. Lap elə götürək qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Gününü. Təkcə həmin gün ixrac etdiyi güllə görə büdcəsinə milyardlar qazandıran ölkələr var. Həmin ölkələr dünya bazarında gül ixracı ilə tanınır. Artıq ölkəmizdə də bu sahəyə diqqət artıb. Bu isə həm idxala olan ehtiyacı aradan qaldırır, həm də özümüzün əkib-becərdiyimiz güllərlə daxili bazara töhfəmizi veririk.

✍ **Fatma BABAYEVA**

## Gözəllik, yoxsa sağlamlıq?

***Gözəl görünmək hər bir qadının arzusudur. Danılmaz faktdır ki, tarixboyu qadınlar gözəlliyin sirlərini öyrənməyə çalışıblar. Bu gün də onlar öz gözəlliklərini qoruyub saxlamaq üçün əllərindən gələni edir və yeni texnologiyaların sayəsində xarici görkəmlərini mükəmməlləşdirə bilirlər. Müasir dövrümüzdə daha dəbli və baxımlı görünmək üçün xanımlarımız gözəllik salonlarına üz tuturlar. Bu artıq onların həyatlarının ayrılmaz hissəsinə çevrilib.***

Onu da deyək ki, natəmizlik, gigiyenik normalara riayət edilməməsi səbəbindən gözəlləşmək üçün üz tutulan bəzi gözəllik salonları xəstəlik mənbəyinə çevrilə, bu məkanlar bir çox xəstəliklərin yoluxma ocağı ola bilər. Belə xəstəliklərə göbələk infeksiyası, hepatit B, C, HİV və digərlərini misal göstərmək olar.

Əvvəlcə qeyd edək ki, salonlarda gigiyena qaydalarını gözləmək, alətləri sterilizə etmək, təmizliyə riayət etmək, daraqları, qayçıları, manikür, pedikür və digər alətləri dezinfeksiya etmək sağlamlığı qorumaq baxımından çox vacibdir. Biz də şəhərdəki bəzi gözəllik salonlarında sanitar-gigiyena qaydalarına necə əməl olunduğunu öyrənmək istədik…

Saç ustası Məleykə xanım bildirdi ki, hər müştəridən sonra saç baxımı zamanı istifadə olunan daraqlar, qayçılar dezinfeksiya edilir, sonra digər müştəri üçün istifadə olunur. O həmçinin qeyd edir ki, aləti, sadəcə, spirtləmək yetərli deyil. Onları spirtlə silmək, suda qaynatmaq təhlükəli viruslara təsir göstərmir. Tam dezinfeksiya üçün mütləq şəkildə xüsusi aparatlardan istifadə olunmalıdır. Həmin aparatlar bakteriyaları, göbələkləri tamamilə məhv edir və bundan sonra onlardan istifadə tam təhlükəsiz olur.

Digər bir gözəllik salonunda çalışan Arzu xanım ixtisasca tibb bacısı olduğu üçün xəstəliklərə yoluxma risklərindən daha ətraflı xəbərdardır. O deyir ki, salonda sanitariya qaydalarına riayət olunur. Dəsmallar, saç üçün polietilen örtüklər, əlcəklər bir dəfə istifadə olunub atılır. Manikür, pedikür zamanı yoluxucu xəstəliklərin daha tez yayılma ehtimalını nəzərə alaraq aparatları dezinfeksiya edirik. Əks təqdirdə, ilk növbədə, müştərilərin sağlamlığına ciddi ziyan vurar, həm də onların sayının azalmasına səbəb olarıq. Biz çalışırıq ki, sanitar-gigiyenik qaydalara tam riayət edək.

Digər bir gözəllik salonunun işçisi Pərvanə xanım bildirdi ki, xanımlar özləri də görürlər ki, təmizliyə necə riayət edirik. Əsas odur ki, işimizin keyfiyyətindən və gördüyümüz təmizlik işlərindən müştərilər razı qalsınlar. Daraqlar, saç kəsmək üçün nəzərdə tutulmuş xüsusi qayçılar, kosmetik alətlər sabunlu su ilə təmizlənir, bir neçə saat ultrabənövşəyi şüa buraxan sterilizasiya qutusunda saxlanılır. Dərini zədələyə biləcək alətlər dezinfeksiya olunur, sterilizə edilir.

Manikür ustası Zəhra xanım isə bildirdi ki, gözəl əllər və səliqəli dırnaqlar xanımın baxımlılığından xəbər verir. Ən çox diqqət yetirdiyimiz vacib məqam əllərdir. Xanımlarımıza əllərinin daha gözəl görünməsi üçün xidmət göstəririk. Bu yolla dırnaqların sınmasının qarşısını ala bilirik. Salonumuzda hər zaman yeniliklərlə maraqlanan ustalar çalışırlar. O həmçinin bildirir ki, salona gələn insanların yoluxucu xəstəliklərə tutulmaması üçün təmizlik qaydalarına riayət olunur, bütün alətlər xloraminlə dezinfeksiya edilir və spirtlə təmizlənir.

Onu da qeyd edək ki, müntəzəm olaraq Naxçıvan şəhərində fəaliyyət göstərən gözəllik salonlarının sahibkarları və işçilərinin iştirakı ilə sanitar-gigiyenik qayda və normalara dair seminarlar təşkil olunur. Qanla keçən yoluxucu xəstəliklərin profilaktikası məqsədilə gözəllik salonlarında aparılan sanitar-gigiyenik və əks-epidemik tədbirlər görülür, monitorinqlər, infeksion xəstəliklərə qarşı dezinfeksiya və sterilizasiya işinin təşkilində yol verilən nöqsanların aradan qaldırılması üçün mütəmadi işlər həyata keçirilir. Təkcə ötən il əhalinin sağlamlığının qorunmasında mühüm əhəmiyyət kəsb edən profilaktika, skrininq tədbirləri çərçivəsində 105 bərbərxana və 38 gözəllik salonunda maarifləndirmə xarakterli monitorinq aparılıb.

Sonda onu da bildirək ki, hər bir insan üçün gözəllik nə qədər lazımdırsa, sağlamlıq bir o qədər vacibdir. Gəlin bu cür məqamlarda diqqətli olaq, sağlamlığımızı gözəlliyimizə qurban verməyək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*İdman*

## Boks üzrə şəhər birinciliyinin qalibləri mükafatlandırılıb

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***



Birinciliyin açılış mərasimində çıxış edən muxtar respublikanın Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və muxtar respublika Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev idmançıları bayram münasibətilə təbrik edib, yarışın qaydaları haqqında onlara məlumat veriblər.

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun olaraq keçirilən birincilikdə 10 çəki dərəcəsi üzrə 40-dan çox dəri əlcək sahibi mübarizə aparıb. Yekun nəticədə Ayxan Heydərov, Fəxrəddin Əliyev, Xəyal Musayev, Nizami Novruzov, Hüseyn Hüseynov, Həsən Hüseynov, Nadir Cəfərov, Xəyal Quliyev, Kamran Allahverdiyev və Əbülfəz Xəlilli müvafiq olaraq 36, 42, 48, 50, 52, 54, 57, 60, 63 və 70 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar diplomlarla mükafatlandırılıblar.

## Dəri əlcək sahiblərimiz ölkə birinciliyində 4 medal qazanıblar

Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri daha bir uğura imza atıblar. Belə ki, Bakı şəhərində keçirilən yeniyetmələr arasında boks üzrə ölkə birinciliyində muxtar respublikanı 10 dəri əlcək sahibi təmsil edib. Boksçularımız birincilikdə dörd bürünc medal qazanıblar.

50 kiloqram çəki dərəcəsində Nizami Novruzov, 52 kiloqram çəki dərəcəsində Kənan Şəfiyev, 63 kiloqram çəki dərəcəsində Kamran Allahverdiyev və 70 kiloqram çəki dərəcəsində Məmməd Məmmədli uğurlu çıxışları ilə seçiliblər.

Sonda idmançılarımız mükafatlandırılıblar.

## Atletlərin yarışına yekun vurulub



Naxçıvan Muxtar Respublika Stadionunda 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmələr (2001-2002-ci illər) arasında keçirilən yüngül atletika üzrə muxtar respublika birinciliyinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayon komandaları mübarizə aparıblar. Hər komandanın heyətində 10 (5 oğlan və 5 qız ) iştirakçı mübarizə aparıb.

Sonda qalib idmançılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Fermerlər və sahibkarların nəzərinə

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti 2018-ci ildə yerinə yetirəcəyi aqrotexniki xidmətlərin qiymətlərini təklif edir.

| S/№ | İşlərin adı | İş vahidinin ümumi dəyəri (manatla) |
|---|---|---|
| 1. | Şum | 40,00 |
| 2. | Topanla (malalama) 1 üz | 15,00 |
| 3. | Mora açmaq | 10,00 |
| 4. | Taxıl səpini | 17,00 |
| 5. | Taxıl səpini şırımaçanla | 30,00 |
| 6. | Özüyeriyən ilə ot biçini | 30,00 |
| 7. | Yonca və ot biçini | 28,00 |
| 8. | Taxıl biçini (Sampo, Çin) | 40,00 |
| 9. | Qarğıdalı biçini | 50,00 |
| 10. | 1000 ədəd ot və ya küləş kipinin preslənməsi | 250,00 |
| 11. | 10 kilometrədək məsafəyə məhsulun daşınması | 12,00 |
| 12. | 15 kilometrədək məsafəyə məhsulun daşınması | 21,00 |
| 13. | Gübrə səpini | 10,00 |
| 14. | Kimyəvi mübarizə tədbiri | 15,00 |
| 15. | Dırmıqlama | 16,00 |
| 16. | Çizel-şırım açma | 19,00 |
| 17. | Kartofun əkilməsi | 50,00 |
| 18. | Kartofun birinci dib doldurması | 50,00 |
| 19. | Kartofun ikinci dib doldurması | 50,00 |
| 20. | Kartofun çıxarılması | 50,00 |
| 21. | Kəsək əzmək | 40,00 |

***İtmişdir***

Vəliyeva Kifayət Həsən qızının adına olan MH-0017872 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 200